**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi**

**Azərbaycan Respublikasına idxal edilən balıqlara, mayalandırılmış kürülərə, xərçənglərə, molyusklara, yemlik onurğasızlara və digər hidrobiontlara dair**

# BAYTARLIQ TƏLƏBLƏRİ

Azərbaycan Respublikasına idxala yoluxucu xəstəliklərdən azad təsərrüfatlardan və inzibati ərazilərdən gələn sağlam hidrobiontlara (balıqlar, mayalandırılmış kürü, xərçənglər, qurbağalar, molyusklar, onurğasızlar) icazə verilir, o cümlədən:

- son 3 il ərzində təsərrüfatda (ixracat su hövzəsində) - durna balığının viruslu hemorragik septisemiyası (VHS), qızılbalıqların mədəaltı vəzisinin infeksion nekrozu (İPH), qızılbalıqların hemopotik toxumasının infeksion nekrozu (İHN), qızılbalıqların aeromonozu (furunkulyoz), qızılbalıqların miksozomozu, karpların yaz viremiyası (VPS), ilan balıqlarının drakunkulidozu;

Hidrobiontlar partiyasının seçildiyi ümumi miqdar, həmçinin mayalandırılmış kürü ixracata qədər 3 aydan artıq olmamaqla hidrobiontların yoluxucu xəstəliklərin törədicilərinin kənarlaşdırılması üçün dövlət baytarlıq laboratoriyasında ixracatçı ölkədə qəbul edilmiş parazitoloji, bakterioloji və virusoloji üsullarla müayinə edilməlidir.

Yemlik orqanizmlərin tərkibində (ağcaqanad sürfəsi, artemiya yumurtaları və s.) toksiki və patogen mikroorqanizmlər olmamalıdır və ixrac üçün seçilmiş balıqlar, hidrobiontlar tərkibində gen mühəndisliyinin üsulları və ya digər genetik cəhətdən modifikasiya edilmiş mənbələr vasitəsilə istehsal edilmiş xammal tərkibli yemlərlə yemləndirilməmiş olmalıdır.

Şirin su hövzələrində yetişdirilərək böyüdülmüş cavan ilan balıqlarının ixracı qadağandır.

Hidrobiontlar birdəfəlik istifadə üçün taralarda ixrac edilir.

Nəqliyyat vasitələri ixracatçı ölkədə qəbul edilmiş qaydalara uyğun işlənilir və hazırlanır.

Hazırkı tələblərdə göstərilmiş şərtlərin yerinə yetirilməsi diaqnostik müayinələrin tarixi göstərilməklə sertifikatlaşdıran baytar həkimi tərəfindən tam təsdiq olunmalı, ixracatçı ölkənin dövlət baytar həkimi tərəfindən imzalanmalı və sertifikatı doldurmuş baytar həkiminə aydın olan dildə və ya beynəlxalq dildə tərtib olunmalıdır.

Hidrobiontların Azərbaycan Respublikasına göndərilməsi üçün yüklənilməsi yalnız idxalçı tərəfindən Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyindən icazənin alınmasından sonra mümkündür.